Təhsil naziri Misir Mərdanovun müvafiq əmrinə əsasən, hava şəraiti ilə əlaqədar ölkənin bütün orta ümumi təhsil müəssisələrində fevralın 2-dən 5-dək tədris müvəqqəti olaraq dayandırılır.

Əmrə əsasən, həmçinin 4-5 fevral tarixlərində Şirvan şəhərində, Hacıqabul, Ağcabədi, Beyləqan, İmişli, Kürdəmir, Xocavənd rayonlarında XI və IX siniflər üzrə keçirilməsi nəzərdə tutulan mərkəzləşdirilmiş yoxlama imtahanları təxirə salınır.

Qeyd olunan şəhər və rayonlarda mərkəzləşdirilmiş yoxlama imtahanlarının keçirilmə vaxtı ilə bağlı ictimaiyyətə əlavə məlumat veriləcəkdir.